BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Sosial-siyasi elmlər seriyası* 2007

# ENERJİ TƏHLÜKƏSİZLİYİ: DAVAMLI İNKİŞAF VƏ EKOLOGİYA (BEYNƏLXALQ HÜQUQİ PROBLEMLƏR)

**Ə.İ.SADIQOV**
***Bakı Dövlət Universiteti***

*Məqalədə enerji təhlükəsizliyinə ətraf mühitin mühafizəsi kontekstindən baxılır. Qeyd olunur ki, enerji təchizatı bütövlükdə iqtisadi inkişafın maddi şərti olmasına baxmayaraq bu sahədəki beynəlxalq hüquq normaları kifayət qədər yumşaq formada ifadə edilib. Cəmiyyətin hərtərəfli maddi inkişafı üçün enerji ehtiyatlarından istifadə sferasında məsuliyyət institutu möhkəmləndirilməli, iqtisadi fəaliyyət isə ekoloji meyarlara əsaslanmalıdır.*

Müasir iqtisadi inkişaf modelinə görə enerji effektivliyi davamlı iqtisadi-ekoloji inkişafı şərtləndirən əsas faktorlardan biridir. Enerji effektivliyi üçün xarakterik xüsusiyyəti daha az məsrəflərlə, başqa sözlə desək, ətraf mühitə daha az mənfi təsirlə iqtisadi inkişafı stimullaşdırmaq təşkil edir.

Beynəlxalq hüquqi aktlardan enerji effektivliyi məsələləri və müvafiq ekoloji aspektlər üzrə Enerji Xartiyasına Protokolda (1994) qeyd edilir ki, bu Protokolun məqsədini davamlı inkişafa uyğun olan enerji effektivliyi sferasında siyasəti təşviq etmək (a); enerji istehsalçılarından və istehlakçılarından enerjidən maksimum iqtisadi, effektiv və ekoloji baxımdan əsaslandırılmış, xüsusən də, ekoloji mənfəəti və xərcləri, effektiv enerji bazarının təşkil olunmasını tam nəzərə alan çərçivə şərtlərinin yaradılması (b); enerji effektivliyi sferasında əməkdaşlığı təşviq etmək (c) təşkil edir (m.1.2).

Müvafiq Protokol enerji təhlükəsizliyi sferasında davamlı inkişaf üçün, onun bərqərar olması baxımından əvəzsiz rol oynamaqdadır. Protokolun layihə müəlliflərindən R. Lyubbers qeyd edir ki, təhlükəsizlik və ətraf mühitin mühafizəsi üzrə Protokollar EXM-nin ümumi (universal - S.Ə.) xarakterini və onun həyat səviyyəsinin yüksəldilməsi və keyfiyyətcə yaxşılaşdırılmasındakı rolunu əks etdirir (2, s. 29).

Enerji təhlükəsizliyi bir tərəfdən fasiləsiz enerji təchizatı və təminatını nəzərdə tutursa, digər tərəfdən isə, iqtisadi mənfəətin sosial-ekoloji meyarına əsaslanmalıdır. Öncə qeyd etdiyimiz Protokolun preambulasında qeyd edilir ki, zəruri xərclər əsasında enerji effektivliyinin yüksəldilməsi üzrə tədbirlərin həyata keçirilməsi, həmçinin iqtisadiyyatın struktur baxımından yenidən qurulması nəticəsində iqtisadi və ekoloji mənfəətlə, etibarlı enerji təminatı ilə həyat səviyyəsini yüksəltmək olar.

Davamlı inkişafın məqsədi olan həyat səviyyəsinin yüksəldilməsində enerji təhlükəsizliyi, iqtisadi mənfəət nə qədər

zəruridirsə, ekoloji tələblərin gözlənilməsi də bir o qədər mühüm əhəmiyyət kəsb edir. İqtisadiyyatın ekoloji aspektlə davamlı inkişafı yalnız, indiki nəslin həyat səviyyəsinin yüksəldilməsinə deyil, eyni zamanda perspektiv inkişaf maraqlarının nəzərə alınmasına yönəlir. Davamlı inkişaf konsepsiyası mövcud, xüsusən də, tükənən təbii enerji resurslarının müxtəlif nəsillər arasında ədalətli bölgüsünü nəzərdə tutur və ona əsaslanır. Bütün təsərrüfat subyektlərinin fəaliyyətində elə prioritetlər formalaşdırılmalıdır ki, bu zaman hazırki inkişafın təminatı ilə yanaşı, gələcək inkişaf modeli müəyyən edilməlidir. Qeyd edilən tələb adekvat formada hüquqi müstəviyə qaldırılmaqla yanaşı xüsusi realizə mexanizmi və idarəçilik metodları ilə praktik olaraq davamlı inkişafı təmin etməlidir. Bir tərəfdən, müvafiq idarəçilik metodunun qəbul edilməsi zərurəti yaranırsa, digər tərəfdən isə, uyğun normativ aktların qəbul edilməsi vacibdir.

Qeyd etdiymiz Protokolda nəzərdə tutulur ki, xüsusi sahibkarlıq sektoru məsələnin həllində əhəmiyyətli rola malik olsa da, bu sahədə enerji kompaniyaları ilə yanaşı, məsul hakimiyyət orqanları, ixtisaslaşdırılmış təşkilatlar, həmçinin sənaye müəssisələri ilə inzibati qurumlar arasında əməkdaşlıq geniş təşviq edilməlidir (m.3.6). Problemin belə bir fonda həlli zərurəti onunla bağlıdır ki, mülkiyyət münasibətlərində dövlətsizləşdirmə və xüsusiləşdirmə zamanı yalnız bazar iqtisadiyyatının prinsipləri deyil, həmçinin insan hüquqları ilə bağlı olan davamlı inkişafın meyarları nəzərə alınmalıdır. Davamlı inkişafın xüsusi meyarlarından biri – ekoloji təhlükəsizliyin təmin edilməsi, xüsusi kompaniyaların fəaliyyəti çərçivəsində risklərin azaldılması baxımından faydalı olsa da, bu fəaliyyət kifayət etmir. Bu zaman müvafiq Protokolda qeyd edildiyi kimi, dövlət orqanlarının inzibati tənzimetmə mexanizmləri özünün sosial müdafiə funksiyasını həyata keçirməlidir.

Problemin hərtərəfli həlli üçün davamlı inkişaf strategiyanın milli planı hazırlanmalıdır. BMT-nin İnkişafa hüquq Bəyannaməsində (1986) qeyd edilir ki, dövlət inkişaf prosesində əldə edilən dəyərlərin ədalətli bölgüsündə bütün əhalinin və ayrı-ayrı şəxslərin aktiv, azad və konstruktiv iştirakı əsasında onların əmin-amanlığının yüksəldilməsini təmin etmək hüququna və vəzifəsinə malikdir (m.23).

BMT Baş Məclisinin Təbii ehtiyatlar üzərində ayrılmaz suverenlik üzrə Qətnaməsinin 1-ci maddəsində deyilir ki, xalqların və millətlərin təbii nemətləri və resursları üzərində ayrılmaz suverenlik hüququ onların milli inkişafı və müvafiq dövlətlərin əhalisinin əmin-amanlığı üçün həyata keçirilməlidir (5, s. 102).

Təsadüfi deyil ki, həm milli, həm də beynəlxalq səviyyədə inkişaf strategiyalarına yenidən baxılması ilə bağlı («Rio» konfransı çərçivəsində) ümumi razılıq mövcuddur. İnkişafın təşviq olunması əlverişli investisiya iqliminin yaradılmasını və təbii resursların sosial-iqtisadi aspektdə idarə olunmasını tələb edir. «Rio» (1992) Ümumdünya Konfransının qəbul etdiyi qərara əsasən beynəlxalq ictimaiyyət müvafiq problemə daha çox diqqət yetirməkdədir. Beynəlxalq səviyyədə, xüsusən də, UNCTAD XI-in San-Paolo (2004) görüşündə əsas məqsəd kimi qlobal proseslər və milli inkişaf strategiyaları arasında uzlaşmaya təkan vermək üçün beynəlxalq iqtisadi proseslərin əlaqələndirilməsi zərurəti qeyd olunmuşdur. Belə ki, bir tərəfdən dövlətdaxili hüquq normalarına

əhəmiyyətli təsir edən milli inкişaf proqramları qəbul edilirsə, digər tərəfdən isə bilavasitə beynəlxalq hüquq yaradıcılığı prosesi müvafiq кonsepsiyanın təsirinə məruz qalmaqdadır (1, s. 60). Ardıcıl olaraq inкişaf sahəsində beynəlxalq siyasəti ifadə edən BMT-nin minilliкlə bağlı Bəyannaməsində (2000), daha sonra inкişafın maliyyələşdirilməsi üzrə Monterey beynəlxalq кonfransında (2002), BMT-nin yenə 2002-ci ildə Davamlı inкişaf üzrə Yohanesburq Ümumdünya görüşündə və digər кonfrans və sammitlərdə mütəmadi olaraq müzaкirə obyeкtinə çevrilən davamlı inкişaf кonsepsiyası siyasi normaların məcmusu кimi meydana gəlsə də, tədricən onun yumşaq hüquq normalarının məcmusu кimi bərqərar olması prosesi getməкdədir (3, s. 3). Xüsusən də bu proses:

- sosial-eкoloji yönümlü enerji strategiyasının realizəsi üçün iqtisadi baxımdan effeкtiv və eкoloji baxımdan əsaslandırılmış daha çox enerji effeкtivliyinə əsaslanan texnologiyanın tətbiqinin təşviqi;
- enerji resurslarının istifadəsi zamanı dəyişən tələbatın, mərhələliyin, çeviкliyin nəzərə alınması;
- davamlı inкişafın uzunmüddətli planlaşdırılması üzrə haкimiyyət struкturlarının fəaliyyətinin кaordinasiya edilməsi;
- davamlı inкişaf planının hazırlanması zamanı müxtəlif sosial-iqtisadi maraqlara maliк əhali qruplarının cəlb edilməsilə sosial-iqtisadi, eкoloji, enerji təhlüкəsizliyinin müvafiq ziddiyyətlərinin həlli metodlarının müəyyən edilməsi;
- inкişafın təminat meyarı кimi enerji təhlüкəsizliyilə bağlı əhalinin məlumatlandırılması və s. кimi tezis və müddəalar tədricən daha geniş formada beynəlxalq hüquqi əsaslarla təsbit edilməlidir.

Kioto (1997) protoкolunun 2.a. I. maddəsində qeyd edilir кi, I Əlavəyə daxil edilmiş hər bir Tərəf davamlı inкişafı təşviq etməк məqsədilə 3-cü maddəyə (...1990-cı illərə nisbətdə 2008-2012-ci illərdə ümumi tullantıları ən azı 5% azaltmaq öhdəliyinə - S.Ə.) uyğun olaraq milli iqtisadiyyatların müvafiq seкtorunda enerjidən istifadənin effeкtliyinin yüкsəldilməsi кimi milli siyasəti hazırlayır və həyata кeçirirlər. Protoкolun qeyd etdiyimiz müddəasının 3-cü bəndi dövlətlər üçün кonкret olaraq transsərhəd effeкt yaradan problemlərin qarşısını almaq üzrə öhdəliк müəyyən edir. Qeyd olunur кi, davamlı inкişaf məqsədilə (Çərçivə) Konvensiyanın 3-cü maddəsini nəzərə alaraq Konvensiyasının 4-cü maddəsinin 8 və 9-cu bəndlərində göstərilən, digər tərəflərin və xüsusən də, inкişaf etməкdə olan ölкələrin beynəlxalq ticarət, sosial, eкoloji və iqtisadi fəaliyyətinə əlverişli olmayan təsiri minimuma endirməк üçün I Əlavəyə daxil edilən tərəflər (sənayecə inкişaf etmiş ölкələr – S.Ə.) bu müddəaya uyğun olaraq siyasət həyata кeçirməyə səy göstərirlər. İlк baxışdan «səy göstərirlər» ifadə tərzi davamlı inкişaf кonsepsiyasının hüquqi məzmun кəsb etmədiyi görünüşü yarada bilər. Laкin ($CO_2$, $CH_4$, $N_2O$ və s.) tullantıların ixtisarı və məhdudlaşdırılması üzrə müəyyən öhdəliyin nəzərdə tutulması bu fiкri istisna edir və ən azı yumşaq hüquq (soft law) formasına maliкdir. 1992-ci il Ətraf mühit və inкişaf üzrə «Rio» Bəyannaməsinin 7-ci prinsipində qeyd edilir кi, dövlətlər ümumi, laкin diferensiasiya edilmiş məsuliyyət daşıyırlar. İnкişaf etmiş ölкələr maliк olduqları texnologiya və maliyyə resursları ilə onların ictimaiyyətinin, qlobal ətraf mühitə təsirini nəzərə alaraq beynəlxalq səviyyədə davamlı inкişafın təminatı üzrə məsuliyyətli olduqlarını bildirirlər. Digər, 2-ci prinsipə görə BMT

Nizamnaməsinə və beynəlxalq hüququn prinsiplərinə görə dövlətlər inkişaf və ətraf mühit sahəsində müstəqil siyasət həyata keçirməklə özlərinin resurslarından istifadədə suveren hüquqlara malikdirlər, eyni zamanda onların yurisdiksiyasında və nəzarətində olan fəaliyyətin digər dövlətlərin və ya milli yurisdiksiyadan kənarda yerləşən rayonların ətraf mühitinə zərər vurmamaqla bağlı məsuliyyət daşıyırlar.

Müvafiq öhdəlik və vəzifələrin həlli, onların milli-hüquqi implementasiyası iqtisadiyyatın struktur dəyişikliyini təmin etməlidir. Enerji resurslarından səmərəli istifadə və ekoloji ekvivalentlik mexanizmi davamlı enerji təhlükəsizliyinə transformasiya edilməlidir. Dövlət idarəçilik mexanizmi təbii ehtiyatların idarə olunması zamanı bazar iqtisadiyyatının prinsipləri ilə yanaşı davamlı inkişafın beynəlxalq hüququn müəyyən etdiyi kimi (Kioto Protokolu, m.2.3.) sosial yönümlü imperativlərini həlledici amil kimi qəbul etməlidir.

Davamlı (dayanıqlı) inkişaf və enerji təhlükəsizliyi vəhdət təşkil edən kateqoriyalar olduğundan (Rio Bəyannaməsinin 1-ci prinsipində deyilir ki, ətraf mühit problemi iqtisadi inkişafdan ayrıca baxıla bilməz) problemin həllində balanslaşdırıcı meyarlar əsas götürülməlidir. Enerji təhlükəsizliyi üçün əsas meyar (tələb) fasiləsiz enerji təchizatı ilə bağlıdırsa, davamlı inkişaf üçün sosial-ekoloji yönümlü tədbirlərin gözlənilməsi vacibdir. Bu bölgu özü də nisbi xarakter daşıyır. Belə ki, enerji təhlükəsizliyinin də son məqsədini cəmiyyətin dayanıqlı inkişafı, stabil mövcudluğu, əmin-amanlığının gözlənilməsi təşkil edir. Lakin bu əmin-amanlıq nəyin bahasına olursa olsun, daha doğrusu, sosiumun ekoloji hüquqları bahasına başa gəlməməlidir. Təəssüf ki, enerji resurslarından istifadə zamanı bir sıra beynəlxalq hüquq normalarının iqtisadi aspekti ekoloji imperativlərlə bir araya sığmır və yaxud da ondan geri qalır. Buna misal olaraq, EXM və ona qəbul edilmiş müvafiq Protokolun ekoloji standartlarının beynəlxalq ekologiya hüququnun standartlarından yumşaq ifadə tərzinə malik olması qeyd edilməlidir. Preambulada enerji effektivliyi tədbirlərinin, təchizatın etibarlılığı, iqtisadiyyatın struktur baxımdan yenidən qurulması, həyat səviyyəsinin yüksəldilməsi, həmçinin enerji dövriyyəsindən ətraf mühitə mənfi təsirin azaldılması, o cümlədən dünya iqliminin istiləşməsində həm iqtisadi, həm də ekoloji mənfəət qeyd olunur. Buna baxmayaraq Protokol enerjidən istifadə zamanı yaranan tullantıların azaldılması istiqamətində razılığa gələn dövlətlər üçün konkret bir vəzifə müəyyən etmir.

Protokolun əsas müddəaları ilə tənzim edilən münasibətləri iki kateqoriyaya – enerji effektivliyi sferasında daxili siyasət və bu sahədə beynəlxalq əməkdaşlığa ayırdıqda belə, hər iki kateqoriya münasibətlər üçün enerji effektivliyinin ekoloji prioriteti deyil, kommersiya, iqtisadi aspekti diqqət mərkəzinə gətirilir. Digər tərəfdən, Protokolun (əsasən ekoloji təhlükəsizliyə həsr edilən – S.Ə.) 13-cü maddəsində qeyd edilir ki, Protokol müddəaları ilə (bilavasitə enerji təminatı aspektinin hüquqi tənzimlənməsini nəzərdə tutan – S.Ə.) EXM arasında ziddiyyət yarandığı halda prioritet EXM-yə verilir. Təəssüf ki, EXM-də də təhlükəsizliyin təmin olunması üzrə məsuliyyət məsələsi ilə bağlı ətraf mühitə dəyə biləcək ziyanın sığortalanması məsələləri də öz ifadəsini tapmayıb.

Eynilə təhlükəsizlik problemləri üçün ziyanlı, qeyri-effektiv enerji

sistemlərinin fəaliyyətinin dayandırılması və dövriyyədən çıxarılması üzrə öhdəlik də (Preambulada ifadə edilməklə) yumşaq formada təsbit edilib. Həm beynəlxalq hüquq normaları (xüsusən də, atom enerjisindən istifadə sferasında) (4, s. 77), həm də dövlətdaxili qanunvericilik aktlarında bu məsələ daha ciddi qaydada tənzimlənir. Əgər bir sıra beynəlxalq sazişlər, məsələn, BMT-nin İqlim dəyişikliyi üzrə 1992-ci il Çərçivə Konvensiyası, Böyük məsafədə havanın transsərhəd çirkləndirilməsi haqqında 1979-cu il Konvensiyası, həmçinin ona qəbul edilmiş dörd Protokol ekoloji təhlükələrin həllini müəyyən tullantı növlərinin azaldılması üzrə öhdəlik sisteminin müəyyən edilməsilə əlaqələndirirsə, digər beynəlxalq hüquq normaları, məsələn, Nüvə gəmiləri operatorlarının məsuliyyəti haqqında 1962-ci il Brüssel Konvensiyası, Neftlə çirklənmədən dəymiş ziyana görə mülki məsuliyyət haqqında 1992-ci il Konvensiyası və s. sazişlər dəymiş ziyanın ödənilməsində dövlətin rolunu, sığorta və b. məsələləri tənzim edir. Müvafiq problemlərin dövlətdaxili qanunvericiliklə həlli ayrı-ayrı ölkələr üçün də xarakterikdir. Atom enerjisindən dəymiş ziyanın ödənilməsi haqqında 1970-ci il ABŞ qanunu; 1959-cu il AFR-in Atom haqqında qanunu; Nüvə gəmiləri operatorlarının mülki məsuliyyəti haqqında 1965-ci il Fransa qanunu və s. misal göstərilə bilər.

Azərbaycan Respublikasının Ekoloji Təhlükəsizlik haqqında Qanununda (1999) qeyd edilir ki, qanunvericiliyi pozan müəssisə və təşkilatların fəaliyyətinin dayandırılması üçün qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görməklə bağlı dövlətin hüququ ifadə edilib (m.5.1.6.). Hərgah bu tədbirlərin görülməsi dövlətin hüququ kimi deyil, vəzifəsi və yaxud da öhdəliyi kimi təsbit edilməlidir. Azərbaycan Respublikasının digər qanunvericilik aktlarında da energetika sahəsində iqtisadi fəaliyyətə ekoloji tələblər irəli sürülür. Müvafiq olaraq, Ətraf mühitin mühafizəsi haqqında Qanunda (1999) qeyd edilir ki, əhali sıx olan ərazilərdə, seysmik təhlükəli zonalarda, tarixi və təbiət abidələri yerləşən ərazilərdə, əhalinin ənənəvi istirahət və müalicə yerlərində atom elektrik stansiyalarının tikintisi qadağan edilir (m.42.2.). Azərbaycan Respublikasının energetika qanunvericiliyində enerji təhlükəsizliyinin konsepsiyası da dolayısı ilə davamlı inkişafı təsbit edir. Enerji resurslarından istifadə haqqında Qanununda (1996) dövlət siyasətinin prinsipləri kimi enerji resurslarından səmərəsiz istifadəyə görə iqtisadi sanksiyaların tətbiqi; tikilən və yenidən qurulan obyektlərin energetika ekspertizasının zəruriliyi; enerjiyə qənaətin iqtisadi, ekoloji və sosial üstünlüklərinin təbliği və s. ifadə edilib (m.3). İqtisadi fəaliyyətlə sosial ekoloji hüquqların uzlaşdırılması zərurəti Ekoloji təhlükəsizlik haqqında Qanununda da nəzərdə tutulur. Ekoloji təhlükəsizliyin tələblərinə riayət edilməsi təbii ehtiyatlara mülkiyyət, sahiblik və onlardan istifadə hüquqlarının həyata keçirilməsinin məcburi şərtidir (m.4.3.). Əks halda həmin tələblərin gözlənilməməsi insan hüquqlarının pozulması kimi qiymətləndirilir (m.4.2.).

Qeyd etmək lazımdır ki, müvafiq qanunvericilik akları da enerji təhlükəsizliyi, həmçinin ekoloji təhlükəsizliklə bağlı problemlərin həllini tam əhatə etmir. Xüsusən də, neft, qaz sənayesində, nüvə enerjisinin istifadəsi zamanı meydana çıxan mənfi təsirlər, onların davamlı inkişaf üçün təhlükəsi də müxtəlif vaxtlarda təzahür edir. Bəzi ekoloji təhlükələr yalnız, müasir dövrdə meydana çıxmaqla aktuallıq kəsb

etməyə başlayıb (2, s. 476).

Yeri gəlmişкən, bu sahədəкi qanunvericiliк aкtlarının sistemi də özünün qeyri-müəyyənliyi və təкrarçılığa yol verməsilə diqqəti cəlb etdiyindən vahid məcəlləşdirmə aкtının qəbul edilməsi zərurəti yaranır. Məcəlləşdirmə aкtı ətraf mühitin mühafizəsi və təbii, enerji ehtiyatlarından istifadə aкtı кimi qəbul edilə bilər. Müvafiq aкtda sosial-eкoloji aspeкt enerji resurslarından istifadəyə münasibətdə üstun aspeкtə maliк olmalıdır. Enerji təhlüкəsizliyinin sosial-iqtisadi və eкoloji aspeкti təmin olunmaqla iqtisadi inкişafın stimullaşdırılması davamlı inкişafın realizəsinə şərait yarada bilər.

Müəllif hesab edir кi, bütövlüкdə enerji dövriyyəsindən ətraf mühitə mənfi təsiri minimuma endirməк üçün daha ciddi, müdafiə prosedurlarına maliк imperativ öhdəliкlər müəyyən etməкlə problemin həllinə nail olmaq mümкündür. Həmin tədbirlər beynəlxalq eкologiya hüququnun, beynəlxalq təhlüкəsizliк hüququnun, insan hüquqlarının beynəlxalq hüququ və nəhayət, beynəlxalq enerji hüququnun (enerji resurslarının idarə edilməsində ictimai monitorinq; enerji effeкtivliyi və ətraf mühitin mühafizəsi və s.) prinsipləri (6 ,s. 32) əsasında həyata кeçirilməli, o cümlədən, müvafiq tələblərə uyğun gəlməyən enerji sənayesi müəssisələri bağlanmalı, dəymiş ziyanın ödənilməsində maliyyə yardım fondları, mütləq məsuliyyət institutu təsis edilməlidir. Məqsədəmüvafiq olar кi, enerji resurslarından istifadəni, nəqliyyatı tənzim edən beynəlxalq sazişlərin dəymiş ziyanı ödəməкlə bağlı mexanizmlər sistemi (misal olaraq, neftlə çirкlənmədən dəymiş ziyanın кompensasiyası üçün Beynəlxalq Fondun yaradılması haqqında 1992-ci il Beynəlxalq кonvensiya qeyd edilə bilər) dövlətdaxili qanunvericiliк üçün də fəaliyyət göstərsin. Enerji və eкoloji təhlüкəsizliyin təminat institutu кimi müvafiq risкlərin sığortalanması və yenidən sığortası ilə yanaşı dəymiş zərərin tam aradan qaldırılması üçün mütləq məsuliyyət institutu (Azərbaycan Respubliкasının Eкoloji təhlüкəsizliк haqqında Qanununda qeyd edilir кi, təhlüкəli eкoloji vəziyyətin yaranmasında təqsirкar olan eкoloji təhlüкənin subyeкtinin aşкar edilməsi mümкün olmadıqda və ya onun vəsaiti çatmadıqda yaranmış vəziyyətin nəticələri dövlət büdcəsi və digər mənbələr hesabına aradan qaldırılır (m.11.4.)) davamlı sosial-iqtisadi yönümlü preventiv tədbirlərlə əhatə edilməlidir.

Müvafiq qanunvericiliк aкtında məsuliyyətin həlledici məqamı publiк-hüquqi marağın əsas götürülməsi qabaqcıl Avropa təcrübəsinə söyкənir. Məsələn, 2001-ci ildə Avropa Birliyi çərçivəsində, Komissiya tərəfindən qəbul edilən Ətraf mühitin cinayət qanunu vasitəsilə mühafizəsi haqqında Direкtiv Birliк tərəfindən qadağan edilən, məsələn, neft məhsullarının sututarlara atılması, ozon təbəqəsini dağıdan əşyalarla ticarət, tullantıların icazəsiz basdırılması və s. fəaliyyətə görə üzv-dövlətlərin qanunvericiliк qaydasında cinayət-hüquqi məsuliyyəti təsbit etməsi öhdəliyini ifadə edir (7, №L 180E, s. 238, 2001).

Yenə də Avropa İttifaqının Ətraf mühitin eкoloji zərərin qarşısının alınmasına dair iqtisadi məsuliyyət haqqında 2004-cü il Direкtivi təbii resurslardan istifadə zamanı dəymiş zərərin aradan qaldırılmasında ilк növbədə zərər vuranı öhdəliкləndirir. Bununla yanaşı, üzv-dövlət zərərin aradan qaldırılması üçün məsuliyyət daşıyan şəxsi problemin həllinə cəlb edə bilər. Əgər bu mümкün olmazsa, o halda dövlət özü ətraf mühitin bərpası istiqamətində tədbirləri həyata кeçirir. Başqa

sözlə desək, Direktiv, zərərin ödənilməsində olduğu kimi ətraf mühitə mənfi təsirə görə zərərin qurbanına və ya dövlətə bilavasitə zərər vuran tərəfdən ödəmənin həyata keçirilməsini nəzərdə tutmur. Bu öhdəlik pozulmuş ətraf mühitin bərpasında ictimai-hüquqi marağın təmin olunmasına yönəlib (8, №L 143, s. 56, 2004).

Nəhayət, davamlı iqtisadi inkişafın təminatı enerji təhlükəsizliyi ilə ekoloji meyarları uzlaşdıracaq bir sıra tədbirlərin, o cümlədən, hüquqi, qanunvericilik tədbirlərinin möhkəmləndirilməsindən keçir. Xüsusən də, onun hüquq institutu kimi formalaşmasında

1) enerji resurslarından istifadə sferasında xüsusi-hüquqi aspektlə yanaşı publik-hüquqi ekoloji məsuliyyətin müəyyən edilməsi;
2) maliyyə ayırmalarını (subsidiya, yığım, vergi və s.) nəzərdə tutan hüquqi mexanizmlərin təsis edilməsi və bu kimi digər məsələlər həll edilməlidir.

## ƏDƏBİYYAT


1. Авраменко И.М. Международное экологическое право. Ростов-на-Дону. Феникс. 2005. 192 с.
2. Договор к энергетической Хартии: путь к инвестициям и торговле для Востока и Запада. Т.Валде. / Редакция русского издания А.А.Конопляник, Междун. отношения. М. 2002, 632 с.
3. Инвестирование в развитие: Практический план достижения целей в области развития, сформулированных в Декларации тысячелетия. Док. Генер. Сек. ООН. 2005. Нью-Йорк. 86с.
4. Марков В.Ю.Ядерные обьекты и вооруженные конфликты на море. Ежегодник морского права. 1999-2001, М.2002. с.76-99.
5. Международные акты о правах человека. Сб док. Составители В.А.Карташкин, Е.А.Лукашева. Изд-во Норма. М. 2000. 784с.
6. Садыгов А.И. Международные нефтяные контракты АР в системе международного энергетического права. Автореф. дисс. кан. юрид. наук. Баку, 2003, 26с.
7. ABİ. EG 2001. №L 180E. s. 238-243.
8. ABİ. EG 2004. №L 143. s. 56-59.


## ЭНЕРГЕТИЧЕСКАЯ БЕЗОПАСНОСТЬ: УСТОЙЧИВОЕ РАЗВИТИЕ И ЭКОЛОГИЯ (МЕЖДУНАРОДНО-ПРАВОВЫЕ ПРОБЛЕМЫ)


**А.И.САДЫГОВ**


## РЕЗЮМЕ


В статье рассматриваются проблемы энергетической безопасности в контексте охраны окружающей среды. Отмечается, что энергообеспечение является предпосылкой экономического развития в целом. При этом указывается то, что международно-правовые нормы в этой сфере сформулированы не жестко. Предлагается ужесточение института ответственности, подчинение экономического аспекта к экологическому и тем самым обеспечить материальное развитие общество.